Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 213 (1341) 18 noyabr - 19 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# MÜSTƏQİLLİYİMİZİN GÖZƏL NÜMUNƏSİDİR BU ŞƏHƏR...

**"... Bu gün Azərbaycan regionun güclü dövlətinə çevrilməklə özü öz həyatını, öz siyasətini, öz yolunu müəyyənləşdirib. Bizim güclü ordumuz və həm də möhkəm, inkişaf edən iqtisadiyyatımız var. Biz məhsul idxal edən ölkədən məhsul ixrac edən ölkəyə çevrilirik. Bu, bizim uğurumuzdur!"**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

**(əvvəli ötən sayımızda)**

### *Prezident tapşırıqlarının icrası: xüsusi fəallıq və məsuliyyət hissi*

**2016-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin aqrar sahənin inkişaf etdirilməsi sahəsində verdiyi tapşırıqların icrasının təşkili məqsədilə tütünçülüyün inkişaf etdirilməsi sahəsində zəruri işlər görülmüşdür. Hesabat ilində son illərdə ilk dəfə olaraq 310 istehsalçı ilə müqavilə bağlanmış, 501 ha sahədə tütünün "İtiyarpaq" və "Virciniya" növlərinin əkilməsi təmin edilmişdir. Hazırda sahələrdən tütünün toplanması davam edir. Artıq 1100,0 ton yaş, 65,0 ton quru tütün emal müəssisələrinə təhvil verilmişdir. Tütün tədarükü davam etdirilir.**

Hesabat dövründə barama istehsalının artırılması sahəsində zəruri işlər görülmüş, baramaçılığın yem bazasının möhkəmləndirilməsi üçün 10 000 ədəd tut ağacının əkilməsi təmin olunmuşdur. Kümçülərin "Şəki İpək" ASC ilə bağladıqları müqaviləyə əsasən 70 qutu ipəkqurdu bəslənmiş və 3.3 ton barama istehsal edilərək müəssisəyə təhvil verilmişdir.

Meyvəçiliyin, xüsusilə intensiv bağçılığın inkişafına ciddi fikir verilmiş, intensiv bağçılıq təsərrüfatının nəzdində ting təsərrüfatı yaradılmışdır. Son illərdə salınmış və damlama üsulu ilə suvarılan 187 ha meyvə bağlarında ekoloji təmiz meyvə istehsalına başlanılmışdır. Bununla yanaşı, qərzəkli meyvələrdən fındıq və qoz bağlarının salınması istiqamətində də ardıcıl işlər aparılmışdır. Katex kəndində xaricdən qoz ağacları gətirilərək sahibkarlar tərəfindən 3.5 ha sahədə əkilmiş və damlama üsulu ilə suvarma sistemi qurulmuşdur. Ölkə başçısının iqtisadiyyatın möhkəmləndirilməsi və ixrac potensialının artırılması ilə bağlı verilmiş tapşırıqların icrası zamanı rayonda fındıq istehsalının artırılması sahəsində zəruri işlər görülmüşdür. RİHB-nın sərəncamı ilə Qərargah yaradılmış və qərargah tərəfindən müəyyən olunmuş tədbirlər planına uyğun olaraq işlər yerinə yetirilir. Rayonda əlavə olaraq 5 min ha sahədə yeni fındıq bağlarının salınması üçün dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar müəyyən edilmişdir. Cari ildə 1500 hektarın əkilməsi təmin ediləcəkdir.

Hazırda həmin sahələr təmizlənir, şumlanır və fındıq əkininə hazırlıq işləri görülür. Sahələrə əkiləcək pöhrə sayları və pöhrələrin götürüləcəyi bağlar müəyyənləşdirilmişdir.



### *Heyvandarlığı gəlirli sahəyə çevirmək tədbirləri*

Rayonda bitkiçiliklə yanaşı heyvandarlıq da inkişaf etdirilir. Bu sahədə görülmüş işlərin nəticəsində iri və xırdabuynuzlu mal-qaranın sayının, eləcə də heyvandarlıq məhsullarının istehsalının artımı müşahidə olunmuşdur.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də zəruri tədbirlər həyata keçirilmiş və rayonun sahibkarlarına xaricdən idxal olunan 14 baş malın güzəştlə satılması təşkil olunmuşdur. 2016-cı ilin 9 ayında kənd təsərrüfatından 51,1 milyon manat gəlir əldə olunmuş, onun 29,7 milyon manatı bitkiçilik, qalan 21,4 mln manatı isə heyvandarlıq məhsullarının payına düşür. Aqrar sektorun davamlı inkişaf edirilməsi üçün ən əsas şərtlərdən biri əkin sahələrinin suvarılmasının təşkilidir. Cari ildə bu məqsədlə "Balakən QES" suvarma kanalı bərpa edilmiş və 100 hektarlarla əkin sahələrinin suvarılmasına imkan yaranmışdır. Kəndlərdə mövcud suvarma kanalları təmizlənmiş, yeni kanallar qazılmış, 25 subartezian quyusu təmir olunmuş, Meşəşambul kəndində Ulğam çayından əlavə suvarma kanalının çəkilməsi istiqamətində işlər görülmüşdür.

### *Torpaq sahələri təyinatına uyğun istifadə olunmalıdır*

Yığıncaqda qeyd olunmuşdur ki, 2015-ci təsərrüfat ilində kənd təsərrüfatına yararlı əkin sahələrinin 3933 hektarı ot istehsalı üçün saxlanılmışdı. Cari ildə həmin sahələrin təyinatına uyğun səmərəli istifadə edilməsi ilə bağlı rayon İcra Hakimiyyəti tərəfindən bələdiyyələr, İnzibati ərazi dairələri üzrə nümayəndələr, fermerlər və torpaq mülkiyyətçiləri ilə birgə tədbirlər həyata keçirilmişdir. Bu sahədə aparılan işlər davam etdirilməlidir. Həmin sahələrdə daha məhsuldar yem bitkilərinin əkilməsi, həmçinin, fındıq bağlarının salınması daha məqsədəuyğundur.



Bir sözlə, bütün mülkiyyət növləri üzrə kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən təyinatına uyğun səmərəli istifadə edilməsi təşkil olunmalı, qanunsuz istifadə və qanunsuz icarə, zəbt edilmə, yaxud təyinatına uyğun istifadə olunmama hallarına yol verilməməli və torpaq qanunvericiliyinin tələblərinə əməl edilməlidir.

**Cari ilin doqquz ayında rayon ərazisində abadlaşdırma, tikinti, təmir və quruculuq işləri davam etdirilmiş, şəhərdə Heydər Əliyev Fondu hesabına tikilən 100 yerlik körpələr evi-uşaq bağçası, əsaslı təmir olunan internet məktəbi və rayon polis şöbəsinin inzibati binası istifadəyə verilmişdir. Kənd təsərrüfatı idarəsinin və Mazımçay buraxılış məntəqəsi yaxınlığında gömrük terminalının tikintisi başa çatdırılmışdır.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ